# Beynəlxalq Multikulturalizm qış məktəbinin iştirakçıları Quba və Xaçmazda olublar

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və Bakı Slavyan Universitetinin birgə təşkilatçılığı ilə fəaliyyətə başlayan "Multikulturalizm Azərbaycanda həyat tərzi kimi: öyrən, araşdır, paylaş-2016" adlı Beynəlxalq Multikulturalizm qış məktəbi fevralın 11-də Qubada öz işini davam etdirib.

Səhər saatlarında Qubaya gələn qış məktəbinin iştirakçıları burada yerli gənclərlə birgə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət ediblər.

Quba Rayon İcra Hakimiyyətinin başçısı Yaşar Məmmədov Beynəlxalq Multikulturalizm qış məktəbinin iştirakçılarını salamlayaraq rayondakı multikultural durum barədə tələbələrə məlumat verib.

Quba Soyqırımı Memorial Kompleksinin ziyarətindən sonra tələbələr qubalı gənclərlə birgə Azərbaycandakı Dağ Yəhudiləri İcmasının sədri Milix Yevdayevin müşayiəti ilə Qubadakı Qırmızı Qəsəbədə olub, sinaqoqlara baş çəkiblər. Quba Rayon İcra Hakimiyyəti başçısının Qırmızı qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Pisax İsakov tələbələri salamlayaraq yəhudilərin adıçəkilən qəsəbədə, eləcə də Azərbaycanda məskunlaşması tarixindən, ölkəmizdəki multikultural mühitdən və tolerantlıq ənənələrindən söz açıb. Sonra qış məktəbinin iştirakçıları ilə Qırmızı qəsəbənin yerli gəncləri birgə çay süfrəsi arxasında səmimi söhbət aparıblar. Quba rayon Gənclər Şurasının sədri Ramin Xudayev tələbələrlə əlaqələrin daha da intensiv və davamlı olması üçün təkliflə çıxış edib.

Həmin gün Xaçmaz rayonuna gələn gənclər Xaçmaz rayon Tarix-Diyarşünaslıq Muzeyi ilə də tanış olublar.

Qış məktəbinin dördüncü günü "Musiqi kaleydoskopu" əyləncə proqramı ilə başa çatıb.

***AZƏRTAC***